# Ənənəvi 15-ci kitab bayramı

**Daşkəsən Rayon İcra Hakimiyyətinin və rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində 15-ci ənənəvi kitab bayramı keçirilmişdir.**



RİH əməkdaşlarının, şəhid analarının, qazilərin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə rayon sakinləri əvvəlcə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin irsindən, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həyat və fəaliyyətindən, eləcə də Azərbaycan klassiklərinin və çağdaş ədəbiyyatımızın görkəmli nümayəndələrinin əsərlərindən ibarət sərgiyə baxmışlar.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Orxan Abbasov bildirmişdir ki, ölkəmizdə kitabxana işinin inkişafına böyük diqqət və qayğı göstərilir, dövrün tələblərinə uyğun islahatlar aparılır. Bu həm də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mədəni quruculuq siyasətinin yüksək səviyyədə davam etdirilməsinin göstəricisidir.

Çıxış edən rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Alidə Mustafayeva, Xoşbulaq kənd 2 nömrəli kitabxana filialının müdiri şəhid anası Aybəniz Abdullayeva və digər natiqlər kitab bayramının keçirilməsinin əhəmiyyətindən söz açaraq qeyd etmişlər ki, Ümummilli Lider Heydər Əliyev kitaba, kitabxanaya, ədəbiyyata, milli-mənəvi dəyərlərimizə daim diqqət yetirmişdir. Bunun nəticəsidir ki, Ulu Öndərin hakimiyyəti illərində bir sıra şəhərlərdə və rayon mərkəzlərində yeni kitabxana binaları tikilmiş, respublika kitabxana şəbəkəsinin sürətli inkişafı, kitabxanaçı kadrların hazırlanması sahəsində səmərəli tədbirlər həyata keçirilmiş, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində bütün zəruri addımlar atılmışdır.

Tədbir çərçivəsində yaradıcı kollektivlərin hazırladıqları rəngarəng kompozisiyalar, bədii qiraət nümunələri, mahnı və rəqslər tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 27 may (№109).- S.16.